# Zəhmət bəhrə verərsə, uğurlar sevindirər

İnsanlara hörmət və ehtiram mənasını ifadə edən bir "kəlam" var. O söz sanki sehr dolu; insanların həyatı yaşamasında da, ağıl və düşüncə tərzinin, dünyagörüşünün formalaşmasında da o sözün həqiqi mənada aid olduğu şəxslərin bəşər tarixində xüsusi yeri vardır. Bəs o sehrli söz nədir?

Bu müəllim sözüdür. Bu sözün hikmətinə baxın ki, yaşanılan həyat insanı "formalaşdıranda" da düşünərək deyirik ki, həyat özü onun müəllimi olmus…

Müəllim adının aid olduğu peşə çox məsuliyyətli, şərəfli bir peşədir. Bu peşənin peşəkarları ömrünü sağlam cəmiyyət - sağlam nəsil yetişdirmək üçün "şam kimi əridir". Bax, elə buna görə də ziyalı olan kəslər aid olub-olmamasından asılı olmayaraq hər kəsə "müəllim" deyə müraciət edəndə narahat olur, əfsusluq hissi keçirirlər. Müəllim adı müraciət edilən- də də nüfuzuna görə deyilməlidir.

Müəllim zəhməti öz qiymətini tapanda bu müəllim üçün ən böyük xoşbəxtlik, uğurdur. 2024 - 2025-ci ildə Qəbələdə olan təhsil səviyyəsi olimpiada və bilik yarışlarında qazanılan nəticələr, ən ümdəsi ali məktəblərə qəbul imtahanlarında məktəblilərimizin qazandığı uğurlarla bariz şəkildə özünü göstərdi.

Qəbələ rayonunun ümumtəhsil müəssisələrini tam orta təhsil səviyyəsi üzrə bitirən 1210 nəfər məzundan 101 nəfəri fərqlənmə attestatına, 1 nəfəri qızıl nişana, 1 nəfəri isə gümüş nişana layiq görülüb. Buraxılış imtahanında 3 nəfər şagird maksimum nəticə göstərib. Ali məktəblərə sənəd verən 750 nəfər məzundan 584 nəfər ölkənin müxtəlif ali məktəblərinə, o cümlədən 20 nəfər Qarabağ Universitetinə qəbul olub. 57 nəfər məzun qəbul imtahanlarında 600-dən yuxarı, 86 nəfər məzun isə 500-600 arası bal toplayıb. Rayon üzrə ən yüksək nəticəni Daşca kənd tam orta ümumtəhsil məktəbin məzunu Səmra Mahmudova (692 bal) göstərib. Tələbə adını qazanmış bütün məzunları təbrik edir, onlara təhsildə və həyatda uğurlar arzulayırıq.

Qəbələ məktəblilərinin qazandığı uğurlar müəllimlərimizin təlim-tərbiyəsinin nümunəsidir. Hər bir şagirdin uğuru isə onun müəllimlərinin uğurudur.



**Fərqli siniflər, fərqli məzunlar**

Məzunlarımızın uğurlarından söhbət açarkən şəhər 2 saylı məktəbin direktoru Elsevər Məmmədovun məktəb məzunları haqda verdiyi məlumat da diqqəti cəlb etdi. Elsevər müəllim məktəbin bu ilki uğurlarından söz açarkən qeyd etdi ki, 2024 - 2025-ci dərs ilində Pərviz Osmanov adına şəhər 2 saylı tam orta məktəbin şagirdləri il ərzində bilik yarışlarında iştirak etmiş, uğurlar qazanmışlar. Məktəbin 8-ci "b" sinif şagirdi Ləman Seyidova Respublika Fənn Olimpiadasında biologiya fənni üzrə finala yüksəlmişdir. 6-cı sinif şagirdi Abdullayeva Aliyə Ruslan qızı, 7-ci «a» sinif şagirdi Əlizadə İfadə Mustafa qızı fənn müsabiqəsində respublika üzrə təbiət fənni üzrə 3-cü yeri tutmuş, bürünc medal qazanmışdır. Həmçinin məktəbin 11 "a" sinifinin məzunlarının hamısı (21 nəfər) ali məktəbə qəbul olunaraq tələbə adı qazanmışlar.




Məktəbin məzunlarından 6 nəfər 600-dən yuxarı, 10 nəfəri isə 500-dən yuxarı "bal" toplamışlar.

**Hamı bir nəfər kimi**

Şəhər 4 saylı məktəbim ingilis dili müəllimi Gülnar Hümbətovanın redaksiyamıza göndərdiyi yazısına əsasən qeyd edə bilərik ki, bu məktəbdə də bir sinifin şagirdləri hamılıqla tələbə adı qazanmışlar. Cari ildə məktəbdə 11-ci sinfi 4 sinif başa vurmuşdur. Gülnar müəllimin verdiyi məlumata görə, 1-ci və 4-cü qrup üzrə təmayüllü 11 "a" sinfi xüsusi bilik və bacarığına sahib olan şagirdlərdən təşkil olunmuş, hər zaman istər təhsil, istərsə də davranış və ictimai işlərdə uğur və müvəffəqiyyətlər əldə edərək məktəbin adını həmişə uca etmişlər. Bu sinfin 19 şagirdi tələbə adı qazanmışdır. Sinfin 4 məzunu 600-dən yuxarı balla tibb sahəsi üzrə tələbə adı almışlar.

Həmçinin məktəbin digər 11-ci sinifləri üzrə də tələbə adı qazanan məzunlar vardır. 11 "b" sinfindən də 19 şagirddən 18 nəfəri tələbə adı almışdır. Onu da qeyd edək ki, bu ilki tədris ilində məktəbimizin 83 nəfər məzunundan 47 nəfər tələbə adı qazanmışdır.

**Ən yüksək nəticələr: Birincilik sevinci**

Hər kəsin arzuları qəlbindəki istəklərdən pöhrələnir. İllər bir-birini əvəz etdikcə arzular reallaşmaq gücü qazanır. Arzuların reallaşması isə hər kəsin iradə möhkəmliyinin təzahürüdür.

**Mahmudova Səmra Xəqani qızı** Daşlıca kəndində doğulmuşdur. Valideynləri ali təhsillidirlər. Zəhra da yaşadığı mühitdə bilik və bacarığa verilən dəyərdən bəhrələnərək savadlı bir insan kimi xalqına xidmət etmək arzusu ilə yaşadı. Bu arzusunun uğurlu başlanğıcını əldə etdi. Onun oxumaq və gələcəyin savadlı bir mütəxəssisi olmaq arzusuna həm valideynləri, həm də müəllimləri inanırdı. Səmra bu inamı doğrultdu və rayon üzrə ali məktəblərə qəbul imtahanlarında ən yüksək bal toplayaraq birincilik qazandı. Bu 692 rəqəmi idi. Səmra ADA Universitetinə qəbul olunmuşdur. Arzularında birincilik daima səninlə olsun, Səmra!

**Gələcəyin həkimi**

**Hümbətova Zəhra Kamran qızı** - 26 avqust 2008-ci ildə Qəbələ şəhərində anadan olmuşdur. Nicat Apayev adına 4 saylı tam orta məktəbdə təhsil alan Zəhra həm təhsildə, həm də məktəbin ictimai işlərində fəallığı, bacarığı,



davranış tərzi ilə həmişə fərqlənmişdir. Hələ kiçik yaşlarından bir sıra kurs və təlimlərdə iştirak etmiş, kompüter üzrə bir neçə proqramları öyrənmişdir. Zəhra musiqisevər, nikbim xarakterlidir. O, 620 bal toplayaraq Qarabağ Universitetinin Tibb fakültəsinə qəbul olmuşdur. Onum ən böyük arzusu Vətənə layiqli vətəndaş, millətinə, xalqına xidmət edən, insanların sağlamlığı keşiyində duran savadlı və bacarıqlı cərrah-həkim olmaqdır. Uğurların bol olsum, Zəhra!

**Ədalət keşikçisi olacaq**




**Aysu Məsimli Tahir qızı** Qəbələ şəhər 5 saylı məktəbin məzunudur. Savadlı və bacarıqlı məzun hələ 9-cu sinifdə oxuyarkən Respublika Fənn Olimpiadasında Azərbaycan dili və ədəbiyyatı fənni üzrə yüksək nəticə qazanaraq gümüş medala layiq görülmüşdü. Bu il məzun olaraq orta məktəbi fərqlənmə ilə, qızıl medalla bitirmişdir. Aysu hüquqşünas olmaq, haqqın, ədalətin keşiyində durmaq arzusundadır. Qazandığı uğur bu arzunun reallığına ən böyük inamdır. Axı Aysu ali məktəblərə qəbul imtahanlarında 619 bal toplayaraq Aviasiya Universitetinin hüquq fakültəsinə qəbul olunmuşdur. Sənə uğurlu təhsil arzulayırıq, Aysu!

**BİBİXANIM.**

## Heç kəs unudulmur

# Təhsil fədaisi

Bum kəndi (qəsəbəsi) ta qədimdən özünün ziyalıları ilə seçilib. Hələ 1920-ci illərdə Bumda qadın alimlər yetişib. Vəsilə Zahid qızını, Adilə Mahmud qızını bunlara misal göstərmək olar. Adilə xanım Azərbaycan Elmlər Akademiyasında, Vəsilə xanım isə Tacik Tibb İnstitutunda çalışıb.

Bala Astan oğlu Sultanov da Bumu təmsil edən, tanınmış və hörmətli maarif fədailərindən olub. Ona «uçitel» Bala bəy deyirdilər. Bala bəy Sultanov 1859-cu ildə Bumda ziyalı ailəsində doğulub. İlk təhsilini də Bumda alıb, sonra Qori müəllimlər seminariyasına daxil olub. Rus dili müəllimi ixtisasına yiyələnib. Sonra Şamaxıda, İsmayıllının Basqal kəndində, Bumda, daha sonra Şəki pedaqoji məktəbində rus dilindən dərs deyib. 1906 - 1911-ci illərdə Bumda məktəb müdiri olub. B. Sultanov 1911-ci ildə



Bumda ilk birsinifli qız məktəbini açmağa nail olub. Bala bəy müəllim müəllimliyə 1891-ci ildən başlayıb. Onun səyi ilə az müddətdə Bum məktəbi 5 sinifli olub. 1910-cu ildə onun köməkliyi sayəsində, ağsaqqalların təkidi ilə Buma Nuxadan (Şəkidən) türk dilini öyrətmək üçün türk təhsilli Mağlud Əfəndi Hacı Əfəndi oğlu adlı şəxs dəvət olunur. Onun səyi ilə Bum məktəbinə qonşu Tikanlı, Mıxlıqovaq, Həmzəli, Xırxatala, Qəmərvan və sair kəndlərdən uşaqlar gəlməyə başlayır. Tanınmış şəxsiyyət Mahmud bəy Şıxməmmədbəyovun oğlu Cahangir Şıxməmmədbəyov xatirələrində yazır ki, mən 1906 - 1911-ci illərdə Bumda oxuduğum zaman məktəb müdiri Bala müəllim idi. O, mənə də dərs deyib. Çox ciddi adam idi. Uşaqlar ondan çəkinərdilər.

Bala müəllim Sultanov Göyçayın Çərəkə kəndindən olan Bikə xanımla ailə qurur, lakin onların övladı olmur. 1921-ci ildə Bikə xanım vəfat edir. Bala müəllim bir daha evlənmir. 1929-cu ildə Bala bəy Sultanov Nuxaya (Şəki) gedir, orada məktəblərdə müəllimlik edir. Müharibənin ağır günlərində o, xəstələnir.

Cahangir müəllim qeydlərində yazır ki, müəllimim olmuş Bala bəyi 1942-ci ildə Nuxada gördüm. Mənim etirazıma baxmayaraq, adəti yzrə o, mənə çay qoydu. O, Hacı Salam Çalutlunun evində yaşayırdı. Mən onun bu ağır vəziyyətinə çox pərt oldum. Ona təklif etdim ki, mənimlə Bakıya gedək, bizim evdə qal, siz də mənim atam. Lakin etiraf etdi ki, müharibə dövrüdür, vəziyyət ağırdır, heç kimi narahat edə bilmərəm. Mən ondan sonra əziz müəllimimi görə bilmədim.

1944-cü ildə o, Göyçaya qardaşı qızlarının yanına gedir. Xəstə Bala bəyin vəziyyəti burada ağırlaşır. 55 il müəllim işləmiş, ömrünü xalqın yolunda şam kimi əritmiş Bala müəllim Sultanov dünyasını dəyişir. Vaxtilə onun tələbəsi olmuş Göyçayın maarif müdiri Mahmudov onu dəfn edir. Onu qürurla qeyd etməliyəm ki, 1916-cı ildə pedaqoji fəaliyyətinin 25 illiyində çar Nikolay onu qızıl qol saatı ilə mükafatlandırmışdı.

Bumun ilk ziyalılarından olmuş Xanım Fərhad qızı Sultanova Bala bəyin qardaşı qızıdır. Xanım müəllimə Göyçayda, Bumda, Tikanlıda müəllim işləyib, Göyçayda vəfat edib.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü,**
**Bum qəsəbəsi.**